42 (1399) 23-29 oktyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## “AZƏRBAYCAN REGİONAL GÜC KİMİ ÇOX MÜHÜM ROL OYNAYIR”

“Qazaxıstan və Azərbaycan təkcə dost dövlətlər deyil, həm də qardaş xalqlar və millətlərdir. Ona görə də Sizin ölkənizlə çoxşaxəli əməkdaşlığın inkişafı bizim üçün böyük prioritetdir”.

Bu sözləri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyev ilə təkbətək görüşündə söyləyib.

***“Üstəlik, Azərbaycan Sizin güclü liderliyinizlə öz mövqelərini xeyli möhkəmləndirib, beynəlxalq arenada nüfuzunu artırıb və dünyanın sizə aid hissəsində regional güc kimi çox mühüm rol oynayır”***, - deyə o əlavə edib.

## “BU SƏFƏRİN İKİ ÖLKƏ ARASINDA STRATEJİ TƏRƏFDAŞLIĞIN GƏLƏCƏK İNKİŞAFI ÜÇÜN ÇOX BÖYÜK ƏHƏMİYYƏTİ VAR”

Qazaxısan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfərinin iki ölkə arasında strateji tərəfdaşlığın gələcək inkişafı üçün çox böyük əhəmiyyətini qeyd edib.

Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edən Qazaxıstan dövlətinin başçısı deyib: ***“Əvvəlcə strateji tərəfdaşlığın, müttəfiqlik münasibətlərinin daha da inkişafı, nəhayət qardaş xalqlarımız və dövlətlərimiz arasında dostluğun möhkəmləndirilməsi baxımından böyük, hətta deyə bilərik ki, kritik əhəmiyyətə malik olan Qazaxıstan Respublikasına rəsmi dövlət səfərinizdə Sizi bir daha salamlamaq istərdim”***.

## “QAZAXISTAN AZƏRBAYCANIN SUVERENLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR”

Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edən Prezident İlham Əliyev deyib: “Torpaqlarımızın işğal altında olduğu uzun illər ərzində Qazaxıstan ardıcıl olaraq Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirib. Biz bu dəstəyi həm ikitərəfli, həm imzalanmış sənədlər, həm də Qazaxıstanın beynəlxalq təşkilatlardakı mövqeyi ilə həmişə hiss etmişik və buna görə Sizə çox minnətdarıq”.

## “AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA SÜLH DÖVRÜ BAŞLAYIB”

Bu sözləri Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edən Prezident İlham Əliyev deyib.

Dövlətimizin başçısı qeyd edib: ***“Bu gün yeni mərhələ başlayır, hətta deyərdim ki, yeni dövr başlayıb – Azərbaycan ilə Ermənistan arasında sülh dövrü. Son hərbi toqquşmalardan cəmi iki il keçməmiş sülh sazişinin paraflanması hər iki ölkənin kifayət qədər yüksək səviyyədə siyasi iradə nümayiş etdirməsindən xəbər verir”***.

O qeyd edib ki, ABŞ Prezidenti Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasındakı rolu ən yüksək qiymətə layiqdir.

## “QAZAXISTAN İNKİŞAF VƏ MODERNLƏŞMƏ YOLU İLƏ İNAMLA İRƏLİLƏYİR”

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında deyib. ***“Son illər Prezidentin (Kasım-Jomart Tokayev – red.) həyata keçirdiyi islahatlar, modernləşmə kursu, müasir texnologiyaların, o cümlədən süni intellektin inkişafı Qazaxıstanın inkişaf və modernləşmə yolu ilə inamla irəlilədiyini nümayiş etdirir”***, - deyən dövlətimizin başçısı vurğulayıb ki, həmçinin Qazaxıstanın beynəlxalq nüfuzu da möhkəmlənir.

## “ZƏNGƏZUR DƏHLİZİNİN AÇILMASI 2028-Cİ İLİN SONUNADƏK BAŞ VERƏ BİLƏR”

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında məlumat verib.

Dövlətimizin başçısı qeyd edib: ***“Hazırda planlaşdırdığımız və həyata keçirdiyimiz bütün işlərlə yanaşı, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir. Azərbaycan ərazisində bütün avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarına qədər tamamlanacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də hər şey belə sürətlə reallaşdırılacaq və belə olan halda Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonuna qədər baş verə bilər”***.

## “TRIPP LAYİHƏSİ MÜTLƏQ REALLAŞDIRILACAQ”

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı vurğulayıb: ***“Bildiyiniz kimi, avqustda keçirilən Vaşinqton Sammitinin nailiyyətlərindən biri TRIPP layihəsidir. Prezident Tramp layihəyə öz adını verib və bu, layihənin mütləq reallaşdırılacağından xəbər verir. Bununla da Orta Dəhlizin daha bir marşrutu açılır. Ənənəvi mövcud olanlara daha biri əlavə olunur – Zəngəzurdan ən yüksək müasir standartlarla 15 milyon ton yük dövriyyəsi. Beləliklə, Asiyadan Avropaya və əks istiqamətdə bizim ölkələrimizdən keçən yüklərin həcmi özlüyündə artım potensialına malikdir, amma həm də onların qəbulu və göndərilməsi üçün daha böyük potensial olacaq”***.

## “QAZAXISTAN VƏ AZƏRBAYCAN YAXIN GƏLƏCƏKDƏ TİCARƏT DÖVRİYYƏSİNİ 1 MİLYARD DOLLARA ÇATDIRMAQ NİYYƏTİNDƏDİR”

Bu sözləri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında söyləyib.

***“Sevindirici haldır ki, ikitərəfli əməkdaşlığın inkişafı üzrə hərtərəfli proqram (Qazaxıstan və Azərbaycan – red.) qrafik üzrə həyata keçirilir. Danışıqlar zamanı iqtisadi-ticari əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirildi və biz yaxın gələcəkdə ikitərəfli ticarət dövriyyəsini iki dəfə artırmaq və onu 1 milyard dollara çatdırmaq üçün lazımi tədbirlərin görülməsi barədə razılığa gəldik”***, - deyə Qazaxıstan Lideri vurğulayıb.



## “AZƏRBAYCAN QAZAXISTAN ÜÇÜN MÜSTƏSNA ÖLKƏ, QARDAŞ DÖVLƏTDİR”

Bu bəyanatla Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev çıxış edib.

Qazaxıstan dövlətinin başçısı vurğulayıb: ***“Bizi ortaq tarixi köklər, zəngin mənəvi-mədəni irs, nəhayət uyğun mentalitet, hadisələrə, vəziyyətin inkişafına baxış birləşdirir. Bu sarsılmaz təməl üzərində çoxşaxəli əməkdaşlığımızı uğurla inkişaf etdiririk”***.



## QAZAXISTAN PREZİDENTİ İLHAM ƏLİYEVİN İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN İNKİŞAFINA TÖHFƏSİNİ QEYD EDİB

Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edən Qazaxıstan dövlətinin başçısı vurğulayıb: ***“Hörmətli İlham Heydər oğlu, Qazaxıstan-Azərbaycan münasibətlərinin hazırkı yüksək səviyyəsinə, ilk növbədə, Sizin şəxsi töhfəniz sayəsində nail olunub. Bu məsələyə dəyişməz dəstəyinizi və diqqətinizi dərindən və yüksək qiymətləndirirəm”***. Kasım-Jomart Tokayev onu da qeyd edib ki, müasir Azərbaycanın bütün nəzərəçarpan nailiyyətləri Prezident İlham Əliyevin qurucu, güclü liderliyi ilə ayrılmaz şəkildə bağlıdır.

## “AZƏRBAYCAN ERMƏNİSTANA YÜK TRANZİTİ İLƏ BAĞLI İŞĞAL DÖVRÜNDƏN BƏRİ MÖVCUD OLAN BÜTÜN MƏHDUDİYYƏTLƏRİ ARADAN QALDIRIB”

Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı vurğulayıb: ***“Onu da qeyd etməliyəm ki, Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub. Zənnimcə, bu, həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir”***.

## “BAKI VƏ ASTANANIN AKTİV QARŞILIQLI FƏALİYYƏTİ CİDDİ GEOSİYASİ ƏHƏMİYYƏT DAŞIYIR”



Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı diqqətə çatdırıb: ***“Bu gün ölkələrimiz arasında aktiv qarşılıqlı fəaliyyət həm də çox mühüm geosiyasi əhəmiyyətə malikdir. Bu gün yeni nəqliyyat marşrutları açıldıqca, daha geniş Avrasiya regionunda birləşdirici layihələr həyata keçirildikcə, Qafqaz və Mərkəzi Asiya daha sıx əlaqələndikcə və tez-tez vahid coğrafi məkan çərçivəsində fəaliyyət göstərdikcə, bütün bunlar qarşılıqlı fəaliyyətin konkret nəticələr verməsini təmin etmək üçün daimi diqqət və təbii ki, dövlət başçılarının iştirakını tələb edir”***.

## “ASTANA VƏ BAKI BİRGƏ MÜƏSSİSƏLƏRİN YARADILMASINDA MARAQLIDIR”

Qazaxıstan və Azərbaycan birgə müəssisələrin yaradılmasında maraqlıdır.

Bu barədə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında bildirib.

O qeyd edib: ***“Hər iki tərəf birgə müəssisələrin yaradılmasında maraqlı olduqlarını bildirib və bu məsələdə mühüm irəliləyiş əldə olunub. Məsələn, transformatorların birgə istehsalına başlanılması planlaşdırılır. Yaşayış və infrastruktur obyektlərinin tikintisi davam etdirilir, gəmiqayırma sahəsində birgə layihələr işlənib hazırlanır”***. Onun sözlərinə görə, hər iki ölkənin hökumətlərinə bu sahələrə nəzarət etmək və mümkün qədər tez bir zamanda sənaye sahəsində əməkdaşlığın inkişafı üçün plan və ya Yol xəritəsi qəbul etmək tapşırılıb.

# Prezident Astanada Beynəlxalq Süni İntellekt Mərkəzində olub



Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Astanada “Alem.ai” Beynəlxalq Süni İntellekt Mərkəzində olublar.
Dövlətimizin başçısına bu il yaradılan Mərkəz barədə məlumat verilib. Qeyd olunub ki, Mərkəzin yaradılmasında məqsəd Qazaxıstanda ictimai və iqtisadi həyatın bütün sahələrində innovasiyaları və süni intellekt texnologiyalarının inkişafını təmin etməkdir. Mərkəzdə fəaliyyət göstərən “İctimai məkan” hər il buraya 10 min istedadlı insanın cəlb edilməsini nəzərdə tutur. Burada süni intellekt sahəsində ən son nailiyyətlərə həsr olunmuş forumlar, mütəxəssislərin görüşləri və açıq müzakirələrin keçirilməsi, həmçinin süni intellekt üzrə vakansiya yarmarkaları, hakatonlar və startap müsabiqələrinin təşkili planlaşdırılır. Mərkəzdə proqramlaşdırma üzrə ilkin bacarıqlar tələb etmədən süni intellekt sahəsində pulsuz təhsil almaq üçün unikal imkan verən “Tomorrow School” və startapların sürətləndirilməsi məqsədi daşıyan süni intellekt kampusu fəaliyyət göstərir. Qabaqcıl texnologiyaların inkişafı və davamlı sahibkarlıq ekosisteminin formalaşdırılması yolu ilə hər il 100 yeni süni intellekt startapının fəaliyyətə başlaması planlaşdırılır.

# “Bakı-Tbilisi-Qars dəmir yolu üzrə daşımalar 5 milyon tonadək artırılıb”



“Şərqlə Qərbi birləşdirən, strateji nəqliyyat marşrutu – Böyük İpək Yolu üzərində yerləşən Azərbaycan və Gürcüstan əsrlər boyu Avropa ilə Asiya arasında körpü rolunu oynayaraq ticari-iqtisadi əlaqələrin inkişafına, mədəni və humanitar mübadilənin möhkəmlənməsinə mühüm töhfələr verib”.
Bu sözləri Azərbaycan Baş naziri Əli Əsədov V Beynəlxaq İpək Yolu Forumunda çıxışı zamanı deyib.
Baş nazir bildirib ki, Azərbaycan və Gürcüstan həmin tarixi missiyanı yeni məzmunda davam etdirərək regional əməkdaşlığın gücləndirilməsində aparıcı rol oynayır, Avrasiya məkanında yeni nəqliyyat və logistika marşrutlarının formalaşmasında əsas iştirakçılar qismində çıxış edir.
“Azərbaycan və Gürcüstanı birləşdirən dostluq, strateji tərəfdaşlıq münasibətləri uzun illərdir ki, regionda sabitliyin, inkişafın mühüm dayaqlarından biridir. Bu gün ölkələrimiz yalnız siyasi baxımdan deyil, həm də iqtisadi, enerji və nəqliyyat sahələrində etibarlı tərəfdaşlardır. Nəqliyyat-tranzit sahəsi ənənəvi olaraq gündəliyimizdə xüsusi yer tutur. Məhz bu istiqamət qarşılıqlı ticarətin və investisiyaların artırılması, eləcə də yeni iqtisadi imkanların yaradılması baxımından böyük potensiala malikdir. Strateji coğrafi mövqeyi nəqliyyat infrastrukturuna yatırılan böyük sərmayələr Azərbaycanın Avrasiyada mühüm nəqliyyat-logistika mərkəzi kimi mövqeyini möhkəmləndirib. Nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədilə ölkəmiz tərəfindən davamlı iş aparılır. Ötən il Bakı-Tbilisi-Qars dəmir yolunun daşıma qabiliyyəti Azərbaycanın sərmayələri hesabına 1 milyon tondan 5 milyon tona qədər artırılıb. Eyni zamanda, ölkənin əsas dəmir yolları və avtomobil yolları şəbəkəsinin kəsişməsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyondan 25 milyon tonadək artırılması məqsədilə ikinci genişləndirilmə mərhələsinə start verilib. Azərbaycan Xəzərin ən böyük ticarət donanmasına, həmçinin regionun ən böyük yükdaşıma aviaşirkətinə malikdir”, - deyə Əli Əsədov əlavə edib.

## BANK XƏBƏRLƏRİ

# Mərkəzi Bank uçot dərəcəsini sabit saxlayıb




Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) İdarə Heyətinin qərarına əsasən uçot dərəcəsi 7 faiz, faiz dəhlizinin aşağı həddi 6 faiz, faiz dəhlizinin yuxarı həddi isə 8 faiz səviyyəsində dəyişməz saxlanılıb.
AMB-dən AZƏRTAC-a bildirilib ki, qərar faktiki inflyasiyanın proqnoz trayektoriyasına uyğunluğu və onun hədəflə (4±2 faiz) müqayisəsi, son qlobal iqtisadi proseslər, daxili makroiqtisadi mühit, valyuta bazarında davam edən sabitlik, həmçinin pul siyasəti qərarlarının ötürücülük mexanizmi nəzərə alınmaqla qəbul edilib.

# Azərbaycanın strateji valyuta ehtiyatları 81,5 milyard dollara çatıb

Azərbaycanın strateji valyuta ehtiyatları 14,7 faiz və ya 10,5 milyard dollar artaraq bu il 81,5 milyard dollara bərabər olub.
Bu barədə Mərkəzi Bankın sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı keçirdiyi brifinqdə deyib.
T.Kazımov qeyd edib ki, Mərkəzi Bankın valyuta ehtiyatları isə 11,31 milyard dollar təşkil edib: *“Ölkənin strateji valyuta ehtiyatları 37 ay mal və xidmətlərin maliyyələşməsinə kifayət edir ki, bu da kifayət qədər yüksək göstəricidir”.*

# Mərkəzi Bank neft-qaz qiymətləri ilə bağlı proqnozlarını açıqlayıb

Azərbaycan Mərkəzi Bankı 2026-cı ildə dünya bazarında neftin 1 barelinin orta qiymətinin 64 dollar olacağını gözləyir.
Bu barədə Mərkəzi Bankın sədri Taleh Kazımov faiz dəhlizinin parametrləri ilə bağlı keçirdiyi brifinqdə deyib.
Mərkəzi Bankın sədri gələn il təbii qazın 1 000 kubmetrinin orta qiymətinin 288 dollar dəyərində proqnozlaşdırıldığını deyib.

# Nağd valyuta bazarında satış tərəfdən təklif tələbi üstələyir

“Azərbaycanda 2025-ci ilin ilk doqquz ayında nağd valyuta bazarında satış tərəfdən təklif tələbi 230 milyon ABŞ dolları üstələyir”.
Bunu Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov mətbuat konfransında bildirib.
“Yəni əhali nəinki (banklardan) valyuta alıb, daha çox valyuta satıb. Bu da bizim üçün daha vacib göstəricidir. Çünki biz əhalinin gözləntilərini bununla qiymətləndiririk”, - baş bankir qeyd edir.
Press-rellizdə isə bildirilmişdi ki, xarici valyuta bazarında vəziyyət stabildir və burada ümumilikdə təklif tələbi üstələyir. Son 7 ayda mübadilə şöbələri tərəfindən nağd xarici valyutanın alışı satışını üstələyib. Rezident fiziki şəxslərin əmanətlərinin dollarlaşma səviyyəsinin son 12 ayda 1.8 faiz bəndi azalaraq sentyabrda 29%-ə enməsi məzənnə ilə bağlı gözləntilərin nikbin olduğunu göstərir. Valyuta bazarında tarazlığın əsas amili olan xarici sektor göstəriciləri əlverişli olaraq qalır.
Dövlət Gömrük Komitəsinin məlumatına görə 2025-ci ilin 9 ayında xarici ticarət balansının müsbət saldosu 1.8 mlrd. ABŞ dolları təşkil edib. Pul baratları üzrə də xalis daxilolmaların ötən ilə nəzərən müsbət dinamikası tədiyə balansının cari hesabının profisiti olmasını dəstəkləyir. Mərkəzi Bankın 2025-ci ilin sonuna cari hesabın profisiti üzrə proqnozu cüzi olaraq artırılma istiqamətində dəyişdirilib. 2026-cı ilə isə cari hesabın profisitinə dair proqnoz dəyişməz saxlanılıb.

# “İqtisadi suverenliyin möhkəmləndirilməsində Mərkəzi Bankın rolu strateji əhəmiyyət daşıyır”



“Hər bir ölkə üçün güclü və dayanıqlı iqtisadi sistemin formalaşdırılması, daxili resursların səmərəli idarə olunması, makroiqtisadi sabitlik, maliyyə dayanıqlılığı milli təhlükəsizliyin və sosial rifahın əsas təminatçısıdır. Dövlətin iqtisadi suverenliyinin qorunmasında Mərkəzi Bank mühüm funksiyaları yerinə yetirir. Maliyyə sektorunun sabitliyi və iqtisadi artımın dəstəklənməsi Mərkəzi Bankın həyata keçirdiyi əsas strateji iqtisadi vəzifələrdən biridir. Son 20 ildə ölkədə makroiqtisadi sabitliyin qorunması, valyuta ehtiyatlarının davamlı şəkildə artırılması həyata keçirilən effektiv pul-kredit siyasətinin nəticəsidir”.
Bu fikirləri Mərkəzi Bankın sədrinin müavini Əli Əhmədov ”Konstitusiya və Suverenlik İli”nə həsr edilən “Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik” mövzusunda keçirilən elmi-praktik konfransda çıxışı zamanı səsləndirib.
Mərkəzi Bankın rəsmisi əlavə edib ki, dünya üzrə qeyri-müəyyənliklərin artdığı, qlobal iqtisadi təzyiqlərin gücləndiyi dövrdə belə Azərbaycan sabit maliyyə mühiti və etibarlı bank sistemi ilə seçilən ölkələrdən biri kimi qalmaqdadır. “Makroiqtisadi proseslərin effektiv tənzimlənməsi üçün banklararası likvidlik idarə olunur, strateji valyuta ehtiyatları gücləndirilir və valyuta bazarında stabillik təmin edilir. Bu, iqtisadi suverenliyin mühüm komponentlərindən biridir”, – deyə Ə.Əhmədov vurğulayıb.
Çıxış zamanı qeyd olunub ki, maliyyə sabitliyi təkcə bank sektoru ilə məhdudlaşmır. Sığorta bazarının inkişaf etdirilməsi, ödəniş sistemlərinin fasiləsiz və təhlükəsiz şəkildə fəaliyyət göstərməsi Mərkəzi Bankın prioritetlərindəndir.

# 5 bankın qiymətli kağızlara investisiyaları 150 milyon manatdan çoxdur



Bu il oktyabrın 1-nə Azərbaycandakı 22 bankdan 5-inin qiymətli kağızlara investisiyaları 150 milyon manatdan çox olub.
Bunlar, “Azərbaycan Beynəlxalq Bankı” (3 203,6 milyon manat), “Kapital Bank” (3 148,2 milyon manat), “PAŞA Bank” (1 987,5 milyon manat), “Xalq Bank” (211,8 milyon manat) və “AzərTürk Bank”dır (186,4 milyon manat).
Qalan 17 bankdan 1-də qiymətli kağızlara investisiyalar 100-150 milyon manat arasında, 11 bankda 10-100 milyon manat arasında, 3 bankda isə 1-10 milyon manat arasında olub. 2 bankın isə kapital bazarına investisiyaları olmayıb.
Son 1 ildə 22 bankdan 11-nin qiymətli kağızlara investisiyaları azalıb. Ən çox azalma “Bank BTB”də (100%), ən az azalma isə “Ziraat Bank Azərbaycan”da (13,6%) qeydə alınıb. 10 bankın isə kapital bazarına investisiyaları artıb. Ən yüksək dinamika “Yelo Bank”da (98,1%), ən aşağı dinamika isə “PAŞA Bank”da (2,1%) qeydə alınıb. Bazar iştirakçılarından birinin – “Azərbaycan Sənaye Bankı”nın son 1 ildə qiymətli kağızlar bazarına investisiyaları olmadığı üçün dinamikanı hesablamaq mümkün olmayıb.

# AYİB Azərbaycandakı layihələrinin portfeli ilə bağlı yenilənmiş məlumatlar təqdim edib

Bu ilin sentyabr ayının sonuna olan vəziyyətə görə, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Azərbaycandakı layihə portfeli 948 milyon avro təşkil edir və 35 layihəni əhatə edir.
AYİB-dən bildirilib ki, bankın bu layihələrdə iştirak payı 1 faiz təşkil edir, əməliyyat aktivlərinin həcmi isə 703 milyon avro məbləğində qiymətləndirilir.
Portfelin ümumi dəyərində özəl sektorun payı 37 faiz təşkil edir.
AYİB fəaliyyətə başladığı vaxtdan bəri Azərbaycanın iqtisadiyyatına ümumilikdə 3 milyard 661 milyon avro yatırım edib. Ayrılmış vəsaitlərin ümumi həcmi 3 milyard 369 milyon avro təşkil edir.
İndiyədək AYİB Azərbaycanda 200 layihənin həyata keçirilməsinə dəstək göstərib.



# BVF Azərbaycanın 2025-2030-cu illərdə nominal ÜDM-i ilə bağlı proqnozlarnı yeniləyib

Beynəlxalq Valyuta Fondu (BVF) “Regional Economic Outlook” adlı oktyabr buraxılışında Azərbaycanın nominal ÜDM-i üzrə proqnozlarını aşağı salıb.
Trend xəbər verir ki, yenilənmiş məlumatlara əsasən, BVF 2025-ci il üçün Azərbaycanın nominal ÜDM-ni 76,4 milyard dollar, 2026-cı il üçün isə 80 milyard dollar səviyyəsində proqnozlaşdırır.
Halbuki, may buraxılışında bu göstəricilər müvafiq olaraq 78,9 milyard və 81,9 milyard dollar səviyyəsində gözlənilirdi.
BVF-nin 2030-cu ilə dair uzunmüddətli proqnozu isə demək olar ki, dəyişməz olaraq - 100,8 milyard dollar səviyyəsində qalıb ki, bu da may ayında verilən 100,9 milyard dollarlıq proqnozdan bir qədər aşağıdır.
Azərbaycan hökumətinin proqnozuna görə, 2026-cı ildə ölkənin ÜDM-i 134,1 milyard manat (78,88 milyard dollar) olacaq. Bu məbləğin 101,7 milyard manatı (59,82 milyard dolları) qeyri-neft sektorunun payına düşəcək. Beləliklə, gələn il ölkə iqtisadiyyatının 3,2 faiz səviyyəsində, o cümlədən qeyri-neft sektorunun 8,8 faiz artım göstərəcəyi proqnozlaşdırılır.

# "PAŞA Bank" 2025-ci ilin ilk yarımillik maliyyə nəticələrini açıqlayıb




*"Bu ilin yanvar-iyun aylarında "PAŞA Bank"ın cəmi öhdəlikləri 8,054 milyard manata çatıb. Ötən ilin eyni dövrü ilə müqayisədə bankın öhdəlikləri 680 milyon manat və ya 9,2% artıb."*

Bu sözləri "PAŞA Bank"ın 16 oktyabr tarixində keçirilən mətbuat konfransında bankın İdarə Heyətinin üzvü, Baş Maliyyə inzibatçısı Murad Süleymanov bildirib. "Ötən il bankın marjası 6.6%-dən 5.5%-ə enmişdi, bu ilin ilk 6 ayında isə bu göstərici 5.5%-dən 4.7%-ə enib", - deyə o əlavə edib. M. Süleymanov onu da qeyd edib ki, bu ilin birinci yarımilində "PAŞA Bank" ASC-nin xalis mənfəətinin azalması əsasən faiz xərclərinin artması ilə əlaqədardır.

"PAŞA Bank"ın bazarda POS-termianallarda "Az-QR" sisteminin tətbiqi məsələsinə toxunan bankın İdarə Heyəti sədrinin müavini Bəhruz Nağıyev isə bildirib ki, proses bu ilin sonunadək tətbiq ediləcək. O qeyd edib ki, ən geci bir ay ərzində bu işlər tamamlanacaq: *"PAŞA Bank" burada ən birinci olacaq. Çünki "Az-QR" standartını yerinə yetirmək üçün müəyyən işlər görülməlidir. Mərkəzi Bankın bu tələbi də bizim öhdəliyimizdir."*

Mətbuat konfransında "PAŞA Bank Gürcüstan"ın fəaliyyəti ilə bağlı hesabatlar da diqqətə çatdırılıb. *"Cari ilin birinci yarısında "PAŞA Bank Gürcüstan"ın məcmu aktivləri 387,910 min manat təşkil edib ki, bu da ötən ilin sonu ilə müqayisədə 9,9 faiz azalma deməkdir"*, - deyən Murad Süleymanov bildirib ki, müştərilərə verilən kreditlərin həcmi 214 milyon 585 min manat səviyyəsində olub və əvvəlki dövrlə müqayisədə 0,2 faiz artıb.

*"Müştərilər qarşısında öhdəliklər 5 faiz azalaraq 228 min 129 min manat olub. Məcmu kapital isə 5,9 faiz artaraq 77 milyon 788 min manata çatıb. Hesabat dövrü üzrə xalis gəlir 2 milyon 446 min manat olub ki, bu da illik müqayisədə 45,9 faiz artım deməkdir. Bankın ümumi gəliri də eyni faiz nisbətində yüksəlib"*, - deyə Murad Süleymanov əlavə edib.

Mətbuat konfransında Bankın maliyyə sektorunda qeyd edilən dövr üzrə əldə etdiyi nailiyyətlər və qarşıya qoyulan hədəflər, müştəri mərkəzli yanaşma, strateji inkişaf prioritetləri və istedadların idarə olunması istiqamətində həyata keçirilən fəaliyyət barədə məlumat verilib.

# Azərbaycan Asiya və Avropanı birləşdirən vacib körpüyə çevrilir

"Azərbaycan Asiya və Avropa arasında körpü qismində getdikcə daha mühüm əhəmiyyət kəsb edir. Bunu Estoniyanın Azərbaycandakı səfiri Vayno Reynart Bakıda keçirilən Mərkəzi Baltik-Azərbaycan" biznes forumunda deyib".



"Azərbaycan, məlum olduğu kimi, xüsusilə regionda baş verən son geosiyasi dəyişikliklər fonunda, logistika baxımından getdikcə daha vacib rol oynayır və Asiya ilə Avropa arasında körpü funksiyasını yerinə yetirir. Əminəm ki, güclü tərəflərimizi birləşdirməklə, uğurlu gələcək təmin edə bilərik",- deyə səfir qeyd edib.

Reynart vurğulayıb ki, Estoniya Azərbaycan şirkətləri ilə birgə rəqəmsal həllərin təşviqi sahəsində əməkdaşlıq edir, həmçinin Azərbaycan hökumətinə bu xidmətlərin tətbiqi və rəqəmsal sistemlərin inkişafı istiqamətində dəstək göstərir.

*"Düzdür, ticarət göstəriciləri hələlik nisbətən təvazökardır, lakin son illərdə onlar artmaqdadır və bu da ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin nəticəsidir"*, - deyə səfir əlavə edib.

# Mərkəzi Baltik ölkələri ilə Azərbaycanın əməkdaşlığı yeni səviyyəyə yüksəlib



"Mərkəzi Baltik ölkələri ilə Azərbaycan arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyur və biznes, texnologiyalar və yaşıl enerji sahəsində tərəfdaşlığın uğurlu nümunəsinə çevrilir".

Bunu Latviyanın Azərbaycandakı səfiri Edgars Skuya Bakıda keçirilən Mərkəzi Baltik-Azərbaycan biznes forumunda çıxışında deyib.

Səfir tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını ifadə edərək qeyd edib ki, bu forum iki il əvvəl başlanmış uğurlu əməkdaşlığın məntiqi davamıdır. *"Məhz iki il əvvəl, oktyabr ayında Estoniya, Finlandiya və Latviyadan olan şirkət nümayəndələri ilk dəfə Azərbaycana səfər etmişdilər. Həmin vaxt forumlar, müzakirələr və B2B görüşlər keçirilmişdi. Biz həmin vaxtdan əməkdaşlığın möhkəmləndirilməsinə və təcrübə mübadiləsinə yönəlmiş bir çox tədbirlər həyata keçirmişik. Bütün bunları bir sözlə ifadə etmək olar - uğur"*,- deyə diplomat vurğulayıb.

Edgars Skuya bildirib ki, layihə dörd ölkənin sahibkarları arasında möhkəm əlaqələrin qurulmasına, bilik və təcrübə mübadiləsinə, bazar imkanlarının öyrənilməsinə töhfə verib, həmçinin ticarət-iqtisadi əməkdaşlıq üçün yeni perspektivlər açıb.

# Suyun səviyyəsinin avtomatik müəyyən olunması üzrə layihə həyata keçiriləcək

"Bu yaxınlarda su hövsələrində suyun səviyyəsinin avtomatik müəyyən olunması ilə bağlı "Azərkosmos"la birgə layihə düşünürük. Bunun üçün müəyyən infrastruktur işləri görməliyik".

Bunu Azərbaycan Dövlət Su Agentliyinin (ADSEA) şöbə müdiri Yusif Əhədi "Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili" adlı tədbirdə bildirib. "Elektron su təsərrüfatı ilə bağlı işlər icra olunur.

Bu istiqamətdə peyk təsvirlərindən istifadə etmək bizim üçün



mühüm əhəmiyyət kəsb edir", - Y.Əhədi qeyd edib.

# Azərbaycanla Çin arasında ticarət dövriyyəsi 28% artıb




Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanla Çin arasında ticarət əməliyyatlarının həcmi 3,4 milyard ABŞ dolları təşkil edib.

Bu barədə Trend Dövlət Gömrük Komitəsindən məlumat əldə edib.

Məlumata əsasən, bu, 2024-cü ilin eyni aylarındakı göstərici ilə müqayisədə 745,2 milyon ABŞ dolları və ya 28,1% çoxdur.

Hesabat dövründə Çin ilə ticarət dövriyyəsi Azərbaycanın ümumi ticarət dövriyyəsinin 9,61%-i həcmində olub. Bununla da Çin hesabat dövründə Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı ölkələr sırasında 4-cü pillədə qərarlaşıb.

Cari ilin yanvar-sentyabr aylarında Azərbaycandan Çinə 70,6 milyon dollarlıq məhsul ixracı qeydə alınıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 57,1 milyon ABŞ dolları və ya 5,2 dəfə çoxdur.

Eyni zamanda, hesabat dövründə Çindən Azərbaycana 3,3 milyard ABŞ dolları dəyərində idxal əməliyyatları icra olunub ki, bu da 2024-cü ilin eyni dövrü ilə müqayisədə 688,1 milyon ABŞ dolları və ya 26,1% artım deməkdir. Bununla da hesabat dövründə Çin Azərbaycanın ən çox məhsul idxal etdiyi ölkələr sırasında ilk pillədə qərarlaşıb.

# Milli Məkan Məlumatları İnfrastrukturu ÜDM-ə 1-1,5% müsbət təsir göstərir



"Azərbaycanda Milli Məkan Məlumatları İnfrastrukturunun qurulması ölkənin iqtisadiyyatına birbaşa, yəni ümumi daxili məhsula (ÜDM) 1-1,5% müsbət təsir edir". Bunu İqtisadiyyat Nazirliyinin Rəqəmsal İdarəetmə şöbəsinin müdiri Anar Nərimanov "Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili" adlı tədbirdə bildirib.

O qeyd edib ki, peyk təsvirləri iqtisadiyyata birbaşa və dolayı təsirlər göstərir: "Bunu bir çox aspektlərdə qiymətləndirmək olar. Peyk təsvirlərinin iqtisadiyyata təsiri nadir dedikdə, Milli Məkan Məlumatları İnfrastrukturu layihəsini qeyd etmək istərdim. Araşdırmalarımız göstərir ki, Azərbaycanda Milli Məkan Məlumatları İnfrastrukturunun qurulması ölkənin iqtisadiyyatına birbaşa, yəni ümumi daxili məhsula (ÜDM) 1-1,5% müsbət təsir edir. Eyni zamanda peyk təsvirləri digər sahələrə də birbaşa və yaxud dolayısı ilə təsir göstərir. Yəni peyk təsvirlərinin əsas istehsalçıları olan agentliklər onları müxtəlif məqsədlər üçün çəkirlər. Məsələn, sənaye, logistika, kənd təsərrüfatı və digər sahələrin inkişafına xidmət edən peyk təsvirləri çəkilə bilər".

# Qaradağ GES-də 1 milyard kilovat-saat elektrik enerjisi istehsal olunub

230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasında 1 milyard kilovat-saat elektrik enerjisinin istehsalı münasibətilə tədbir keçirilib. Tədbirdə Energetika Nazirliyi, "Azərenerji" ASC və Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin rəhbər şəxsləri iştirak ediblər.

Bildirilib ki, 2023-cü ildə istismara verilmiş Qaradağ GES Azərbaycanın bərpa olunan enerji sahəsində ilk iri miqyaslı beynəlxalq investisiya layihəsi olmaqla, ölkəmizdə "yaşıl enerji" keçidinə mühüm



töhfə verir.

İki il ərzində istehsal olunmuş 1 milyard kilovat-saat elektrik enerjisi ölkə üzrə 220 milyon kubmetr təbii qaza qənaət imkanı yaradaraq, atmosferə 400 min ton karbon qazı atılmasının qarşısını alıb.

Daha sonra simvolik sertifikatın imzalanma mərasimi keçirilib. Sertifikatı Azərbaycan tərəfdən Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev və "Azərenerji" ASC-nin İdarə Heyəti sədrinin müavini Rüstəm Qasımov imzalayaraq "Masdar" şirkətinin Baş əməliyyat direktoru Əbdüləziz Alobaidliyə təqdim ediblər.

Qeyd edək ki, Qaradağ GES ildə təxminən 500 milyon kilovat-saat elektrik enerjisi istehsal etməklə 110 min ev təsərrüfatını yaşıl enerji ilə təmin edir.

# "Azərkosmos" 10 milyon dollarlıq biznes portfeli formalaşdırıb

"2024-cü ildə – peykimizin buraxılmasından 10 il sonra - "Azərkosmos" 10 milyon dollarlıq biznes portfeli formalaşdırmağa nail olub. Bu, son on ilin ən böyük nailiyyətlərindən biridir".

Bunu Azərbaycan Respublikasının Kosmik Agentliyinin "Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili" adlı tədbirində agentliyin idarə heyəti sədrinin müavini Fuad Aslanov deyib.

O bildirib ki, 2022-ci ildə yaradılan "Coğrafi İnformasiya Sistemləri Mərkəzi" vasitəsilə 100-dən çox kommersiya layihəsi icra olunub: "Son 10 ildə biz yalnız coğ-



rafi məlumatların toplanması ilə kifayətlənmədik, eyni zamanda rəqəmsal həllər üzərində də çalışdıq. Hazırda bir neçə rəqəmsal həllimiz istifadəyə tam hazır vəziyyətdədir".

F.Aslanov onlardan bəziləri haqqında məlumat verib: "Birinci, "FarmUp"dır. Adından da göründüyü kimi, kənd təsərrüfatında əkin sahələrinin müəyyənləşdirilməsi, məhsuldarlığın ölçülməsi və proqnozların verilməsi üçün mühüm bir platformadır.

İkinci platforma "Plat¬terra"-dır. Süni intellektə əsaslanır və bizə su hövzələrini, əkin və meşə sahələrini dəqiq müəyyənləşdirməyə, bu məlumatlar əsasında analiz və təhlillər aparmağa imkan yaradır.

Üçüncü, "WebGis" platforması həm coğrafi məkan məlumatlarının, həm də istifadəçilərin öz analiz və təhlillərinin əlavə olunması ilə optimal qərarların qəbuluna şərait yaradır. Hazırda bu platformaya böyük tələbat müşahidə edirik".

# «Евразийская хартия многообразия и многополярности в XXI веке»

***(август 2025 г., журнал «Россия в глобальной политике»)***

**(Начало в предыдущих номерах)**

***Если США действительно собираются обратиться внутрь самих себя и отказаться от попыток утверждения глобальной гегемонии, это, безусловно, было бы очень позитивным событием. Такой шаг, по сути, ознаменовал бы запоздалое признание реальности, а именно того факта, что возглавляемый США либеральный международный порядок рушится под тяжестью его собственных противоречий и во все большей степени заменяется региональной динамикой. Эти события были точно предсказаны десятилетие назад дуайеном мировой внешней политики Генри Киссинджером в его книге «Мировой порядок» (2014).***

Два момента из книги особенно заслуживают упоминания. Во-первых, Киссинджер объяснил, почему глобальный порядок невозможен, утверждая, что «ни одно общество никогда не обладало достаточной силой, ни одно руководство не обладало достаточной устойчивостью, и ни одна вера не обладала достаточной динамикой, чтобы навязывать свои законы на протяжении длительного времени во всем мире». Эта предпосылка, в свою очередь, побудила Киссинджера предложить идею «установить концепцию порядка в различных регионах и связать эти региональные порядки друг с другом». Мы в Беларуси не можем не разделять вышеупомянутую идею Киссинджера о том, что всем регионам мира необходимо создать свои внутренние порядки и сообща работать на обеспечение их взаимосвязанности. Такой посыл проистекает из нашей убежденности в том, что с крахом либерального международного порядка в мире более не будет какой-либо иерархической системы с единым доминирующим центром.

Евразийская хартия для формирования евразийского порядка Евразии необходим региональный порядок, который помог бы евразийским государствам преодолеть нынешний глобальный беспорядок.

Но как его построить? Возможно, идея Беларуси разработать Евразийскую хартию многообразия и многополярности в XXI веке может быть своевременной и полезной в этом отношении.

Как мы видим, Хартия действительно может стать полезным руководством для евразийских государств в их усилиях по установлению евразийского порядка и, учитывая важность суперконтинента для всего мира, связать евразийский порядок с порядками в других регионах. По сути, мы рассматриваем Хартию как своего рода целостную и последовательную долгосрочную геостратегию для нашего суперконтинента во всех его измерениях – безопасности, экономике, науке, технологиях, культуре, цивилизационном и некоторых других аспектах. Как любой стратегический документ, она должна основываться на некоторых принципах и элементах. Мы предвидим следующие. Во-первых, Хартия должна быть конструктивным усилием, поскольку она не будет направлена против какой-либо страны или группы государств, и не будет нацелена на получение какой-либо одной группой стран за счет других.

Такая логика будет представлять собой радикальный отход от предыдущих враждебных и конфронтационных стратегий для Евразии, которые практиковались в прошлом. Более того, Евразийская хартия должна основываться на нормах и принципах международного права, изложенных в Уставе Организации Объединенных Наций и других международных юридически обязывающих документах. Во-вторых, Хартия должна быть «местным» процессом, то есть усилием, в котором участвуют только страны Евразии, поскольку «местные» субъекты лучше других знают свои собственные интересы, способны определять общие цели и средства их достижения, а затем эффективно реализовывать совместно взятые на себя обязательства. Прошлое является хорошим руководством в этом отношении, поскольку оно наглядно продемонстрировало, что решения для Евразии, придуманные и навязанные внешними субъектами, в принципе не укоренялись и не могут укорениться в чуждой для них почве. В-третьих, Хартия должна быть коллективным усилием, то есть она должна разрабатываться и обсуждаться государствами Евразии коллективным образом. Мы абсолютно убеждены, что каждая страна в Евразии должна чувствовать свою причастность к этому документу и видеть свою позицию и предпочтения отраженными в Хартии. В таком случае каждое государство будет иметь достаточный стимул для реализации положений Хартии. В четвертых, Хартия должна быть инклюзивным процессом. Это означает, что переговоры должны быть открыты для всех евразийских государств. Логика здесь проста — все они должны быть заинтересованы в мирном и процветающем суперконтиненте. Однако, на сегодняшний день представляется сомнительным, что европейские страны НАТО и их партнеры захотят участвовать в работе над Хартией. В то же время, эти потенциальные уклонисты должны спросить себя, куда такая позиция неприятия в конечном итоге приведет их в контексте быстро происходящих глобальных и региональных изменений. Давайте порассуждаем.

Европа действительно представляет собой очень успешный эксперимент интеграции и консолидации. В некоторых отношениях она близка к тому, чтобы стать Соединенными Штатами Европы, то есть реализовать знаменитое изречение, высказанное Виктором Гюго на Международном конгрессе мира в Париже в 1849 году. Но европейский эксперимент был успешным в прошлом в силу ряда конкретных благоприятных факторов, таких как, прежде всего, огромное богатство, накопленное в Европе за столетия эксплуатации других народов, зонтик безопасности, предоставленный Соединенными Штатами Америки после Второй мировой войны, свободная торговля и широкий доступ к дешевым ресурсам на востоке континента.

Эти факторы сейчас почти что все исчезли. Вместо этого, Европа наводнена проблемами, такими, среди прочего, как массовая миграция с Глобального Юга, потеря экономической конкурентоспособности, возросшая задолженность, растущее социальное неравенство, неэффективный мультикультурализм, быстро стареющие общества. Некоторые из этих проблем Европа создала для себя сама через проведение в международной политике односторонних подходов в нарушение международного права. Кстати, такие же факторы влияют и на некоторые развитые евразийские страны на восточной окраине Евразии. Как следствие, эти две группы стран в итоге окажутся в положении агентов, невостребованных более внешним игроком, который полагался на них и поддерживал их развитие в прошлом, но теперь фокусируется на своих внутренних делах. Брюссельский аппарат в настоящее время отказывается взаимодействовать с евразийскими интеграционными субъектами якобы из-за своего чувства превосходства. Но это чувство превосходства совершенно неоправданно. Как сказал Сэмюэль Хантингтон в своей знаменитой книге [Столкновение цивилизаций, 1996]:

«Запад завоевал мир не превосходством своих идей, ценностей или религии, а скорее, своим превосходством в применении организованного насилия. Западные люди часто забывают об этом факте, не-западные - никогда». Поэтому, Европа должна оставить в стороне свой комплекс превосходства и перестать рассматривать других в Евразии как своего рода современных варваров. Европе и некоторым развитым странам Восточной Азии было бы разумно принять за основу евразийскую концепцию, поскольку она дает им способ решения их растущих проблем. В качестве иллюстрации всего лишь один пример: миграционный кризис, затронувший Европу, может быть успешно разрешен только посредством согласованных усилий как европейских, так и евразийских стран. В-пятых, Хартия должна быть «вовлекающим» усилием в том смысле, что договаривающимся сторонам следует консультироваться с соответствующими евразийскими региональными организациями и интеграционными образованиями, такими, как Евразийский экономический союз, АСЕАН, Шанхайская организация сотрудничества, Содружество Независимых Государств, Лига арабских государств, Совет сотрудничества арабских государств Персидского залива, Организация Договора о коллективной безопасности, Совещание по взаимодействию и мерам доверия в Азии, Союзное государство Беларуси и России. Само собой разумеется, что, если Европа решит присоединиться к процессу, также будет приветствоваться вовлечение в процесс и западноевропейских институтов – Европейской комиссии, Совета Европы и некоторых других. В-шестых, Хартия должна быть всеобъемлющим усилием. Это означает, что с точки зрения содержания документ должен охватывать все сферы потенциального сотрудничества — безопасность, экономику, гуманитарные вопросы, цивилизационные обмены и т. д. Вместе с тем, первостепенное значение в Хартии следует уделить теме евразийской безопасности.

Хартия, по сути, должна способствовать созданию новой архитектуры евразийской безопасности. Именно такой вид пан-континентальной безопасности необходим, поскольку предыдущие попытки обеспечения безопасности либо под эгидой СБСЕ/ОБСЕ, либо в период после Холодной войны потерпели неудачу, не в последнюю очередь потому, что все они были подчинены цели обеспечения безопасности одних стран за счет других.

С учетом этого опыта принцип неделимой безопасности должен лежать в основе новой архитектуры безопасности. Следует отметить, что идея неделимой безопасности присутствовала в Хельсинкском Заключительном акте, но не в Декалоге принципов, а лишь в преамбуле этого документа. На этот раз этот принцип должен быть вынесен на передний план Хартии. Важно отметить, что создание архитектуры евразийской безопасности будет также иметь жизненно важное значение для создания новой концепции глобальной неделимой безопасности, учитывая центральную роль Евразии в мировых делах.

В экономическом плане Хартия должна дать помочь евразийским государствам уйти от западноцентричной экономической взаимозависимости, которую Запад использовал в качестве оружия против своих оппонентов. В то же время Хартия должна придать импульс дальнейшей экономической интеграции и взаимосвязанности в Евразии. Успешные экономические процессы в Евразии, в свою очередь, будут способствовать возрождению идеи справедливой экономической глобализации на планете в целом. В-седьмых, Хартия



*М.Рыженков,*
*Министр иностранных*
*дел Беларуси*

должна быть хорошо продуманным процессуальным усилием. Это подразумевает, что евразийские государства, ведущие переговоры по тексту Хартии, должны иметь четкое представление о конечной цели. Мы в Беларуси считаем, что процесс разработки Евразийской Хартии во многих отношениях может быть похож на тот, который привел пять десятилетий назад к принятию Хельсинкского Заключительного акта.

Следовательно, прошлый процесс может послужить полезной точкой отсчета для планирования предстоящих переговоров по Хартии. В частности, мы считаем, что имело бы смысл повторить довольно успешный опыт Совещания по безопасности и сотрудничеству в Европе, создав аналогичную конференцию, которая охватывала бы весь суперконтинент.

Наконец, Хартия должна быть дальновидным усилием. По нашему мнению, в рамках Хартии необходимо стремиться не только к установлению принципов, реализация которых на всем континенте приведет к более безопасной, стабильной и процветающей Евразии, но и к выходу за пределы региона с целью установления партнерских отношений с другими регионами. Суть такого рода мышления была хорошо отражена в годовом отчете российского дискуссионного клуба «Валдай» за 2024 год:

«Связь Евразии с остальным миром настолько глубока, что евразийские процессы окажут решающее влияние на другие части планеты и на подходы к решению важнейших вопросов безопасности и устойчивости, таких как продовольствие, энергетика и окружающая среда».

Итак, в целом, Евразийская хартия многообразия и многополярности в XXI веке должна способствовать созданию системы панконтинентальной безопасности, которая обеспечит стабильное и прогрессивное развитие региона, что, в свою очередь, поможет сформировать глобальную систему, способную решать проблемы всей сложности и разнообразия планеты, тем самым превращая земной шар в лучшее место для всех.

Мы убеждены, что с идеей Евразийской хартии мы выбрали себя и указали другим странам Евразии путь в правильном направлении. Необходимо отметить, что Беларусь не претендует на прерогативу единоличного знания того, как изменить дела в Евразии в лучшую сторону. Так, мы поддерживаем любые усилия, направленные на реализацию вышеуказанной цели, как, например, идею создания Большого евразийского партнерства, выдвинутую Президентом России Владимиром Путиным в 2015 году. В то же время мы готовы к предстоящей работе над Хартией и призываем наших евразийских партнеров присоединиться к этому начинанию.

**Источник:**
**www.mfa.gov.by**

# Назван объём производства на солнечной электростанции «Гарадаг»

Объём производства электроэнергии на 230-мегаваттной солнечной электростанции «Гарадаг» в Азербайджане достиг 1 миллиарда киловатт-часов за два года, сообщает во вторник Trend со ссылкой на министерство энергетики страны.

В мероприятии, посвященном этому событию, приняли участие представители ведомства, ОАО «Азерэнержи» и компании Masdar (Объединённые Арабские Эмираты).

Как отметиили на мероприятии, введённая в эксплуатацию в 2023 году солнечная электростанция «Гарадаг» является первым крупномасштабным международным инвестиционным проектом Азербайджана в сфере возобновляемой энергетики и вносит значительный вклад в переход страны к «зелёной» энергетике.

За два года работы станция произвела 1 миллиард киловатт-часов электроэнергии, что позволило сэкономить 220 миллионов кубометров природного газа и предотвратить выброс в атмосферу 400 тысяч тонн углекислого газа.

В рамках мероприятия состоялась церемония подписания символического сертификата. Документ со стороны Азербайджана подписали директор Государственного агентства по возобновляемым источникам энергии при министерстве энергетики Джавид Абдуллаев и заместитель председателя Правления ОАО «Азерэнержи» Рустам Гасымов. Сертификат был передан главному операционному директору компании Masdar Абдулазизу Алобайдли.

Отметим, что солнечная электростанция «Гарадаг» ежегодно производит около 500 миллионов киловатт-часов электроэнергии, обеспечивая «зелёной» энергией порядка 110 тысяч домохозяйств.

# Азербайджан будет производить спутники для зарубежных стран

Азербайджан будет производить собственные спутники в рамках проекта «Azersky-2».

Об этом сказал журналистам временно исполняющий обязанности председателя правления Космического агентства Азербайджана (Азеркосмос) Дунай Бадирханов.

Он сообщил, что для этого создана соответствующая компания: «Цель — производство космических аппаратов. В первую очередь, будут производиться собственные спутники. Мы также планируем использовать эти возможности для производства в Азербайджане спутников различного назначения для региона и мира».

В связи со смертью народного артиста Азербайджанской Республики

**РАМИЗА ГУЛИЕВА**

Посольство Республики Беларусь выражает искренние соболезнования родным и близким этого выдающегося деятеля культуры, задавшего тон глубокому и всестороннему взаимодействию Республики Беларусь и Азербайджанской Республики в гуманитарной сфере. Разделяем чувство скорби азербайджанского народа и выражаем уверенность в продолжении начатых Р.Гулиевым инициатив.

**Баку, 15.10.2025**

**Посол Беларуси в Азербайджане Дмитрий Пиневич**

# Avrozonada dövlət borcunun ÜDM-ə nisbəti 88 faizi ötüb



Bu ilin ikinci rübünün sonunda Avrozonada (EA20) dövlətin ümumi borcunun ümumi daxili məhsula (ÜDM) nisbəti 88,2 faiz təşkil edib. Bu göstərici ilin birinci rübünün sonu (87,7 faiz) ilə müqayisədə artıb. Avropa İttifaqında (Aİ) isə bu borcun ÜDM-ə nisbəti 81,5 faizdən 81,9 faizə yüksəlib.

Bu barədə Aİ-nin Statistika İdarəsinin (Eurostat) məlumatında bildirilib.

Ötən ilin ikinci rübü ilə müqayisədə dövlət borcunun ÜDM-ə nisbəti həm avrozonada (87,7 faizdən 88,2 faizə), həm də bütövlükdə Avropa İttifaqında (81,2 faizdən 81,9 faizə) artıb. Dövlət borcunun əsas hissəsini qiymətli kağızlar təşkil edib. Bu kateqoriya avrozonada 84,2 faiz, Aİ-də isə 83,7 faiz olub. Kreditlərin payı avrozonada 13,2 faiz, Aİ-də isə 13,8 faiz, pul və depozitlər isə hər iki iqtisadi məkan üzrə 2,5 faiz təşkil edib.

Dövlət borcunun ÜDM-ə nisbəti üzrə ən yüksək göstəricilər Yunanıstanda (151,2 faiz), İtaliyada (138,3 faiz), Fransada (115,8 faiz), Belçikada (106,2 faiz) və İspaniyada (103,4 faiz) müşahidə olunub. Ən aşağı göstəricilər isə Estoniyada (23,2 faiz), Lüksemburqda (25,1 faiz), Bolqarıstanda (26,3 faiz) və Danimarkada (29,7 faiz) qeydə alınıb.

# "Goldman Sachs": qlobal neft bazarında profisit görünür

İnvestisiya bankı "Goldman Sachs"ın analitikləri neft tankerlərinin peyk izləmə məlumatlarını Beynəlxalq Enerji Agentliyi və ABŞ Energetika Nazirliyinin ehtiyat göstəriciləri ilə müqayisə edərək, belə qənaətə gəliblər ki, "uzun müddət gözlənilən qlobal profisit" nəhayət özünü göstərməyə başlayıb.

OECD ölkələrindəki ehtiyatlar artıb – müşahidə olunan kommersiya ehtiyatları ilin əvvəlindən bu yana gündəlik 340 min barel artıb ki, bu da ümumi həcmin təxminən dörddə birinə bərabərdir.

Gözlənilir ki, 2025-ci ilin sonuna qədər bu pay ümumi həcmin üçdə birinə qədər yüksələcək.

Rusiyada hasilatdakı dəyişikliklər bankın proqnozuna təsir edən əsas risk amilidir. "Goldman Sachs" bu amilləri nəzərə alaraq "Brent" markalı neftin qiymətinin 2026-cı ilin dördüncü rübündə bir barel üçün 52 dollara qədər enəcəyini gözləyir.

Rusiyada istehsalın azalması riskini yaradan səbəblər bunlardır: logistika problemləri, avadanlıqların köhnəlməsi, güclü rubl və Ukraynanın enerji inf-



rastrukturuna hücumları.

Bununla belə, analitiklər qeyd edirlər ki, qiymətlərin azalması yavaş ola bilər, çünki ehtiyatların artımı artıq bazar qiymətlərində nəzərə alınıb, həm də dizel yanacağının yüksək emal rentabelliyi tələbi dəstəkləməyə davam edir.

# Robotlar 600 min insanı işindən məhrum edəcək



"Amazon" şirkəti 2033-cü ilə qədər robotların köməyi ilə təxminən 600 min amerikalı işçini işə götürməkdən imtina etməyi planlaşdırır.

Bu barədə "The New York Times" (NYT) nəşri məlumat yayıb. Məlumata görə, Amazon-un robototexnika komandası şirkətin bütün əməliyyatlarının təxminən 75 faizini avtomatlaşdırmaq üzərində çalışır. Gözlənilir ki, artıq 2027-ci ilə qədər ABŞ-də 160 min iş yeri ləğv ediləcək. Avtomatlaşdırma tədbirləri şirkətə 2025–2027-ci illər ərzində 12,6 milyard dollar qənaət gətirəcək.

"Amazon" ictimaiyyətdə iş yerlərinin itirilməsinə dair mümkün mənfi reaksiyadan əvvəl məsuliyyətli korporativ iştirakçı kimi imicini qorumağa çalışıb. Şirkət guya, ictimai layihələrdə iştirak və "avtomatlaşdırma" və "süni intellekt" kimi ifadələrdən qaçmaq planlarını müzakirə edib. Onların yerinə daha yumşaq ifadələr – "müasir texnologiyalar" və ya insanların yanında işləyən robotları ifadə edən "kobot" (collaborative robot) termini təklif olunub.

"Amazon" nümayəndəsi Kelli Nantal "The Verge" nəşrinə bildirib ki, yayılan sənədlər yalnız bir komandanın baxışlarını əks etdirir və şirkətin indiki və ya gələcək işəgötürmə strategiyasını əhatə etmir. O əlavə edib ki, sızan məlumatlar şirkətin planlarını tam və dəqiq şəkildə əks etdirmir.

# Qızıl sürətlə ucuzlaşır



Qiymətli metallar bazarında genişmiqyaslı satışların təsiri ilə qızıl 2013-cü ildən bəri ən kəskin enişini, gümüş isə 2021-ci ildən bu yana ən böyük qiymət itkisini yaşayıb.

Marja xəbər verir ki, bir neçə həftə davam edən və qiymətli metalların ardıcıl olaraq rekord səviyyələrə yüksəlməsinə səbəb olan "rallidən" sonra qızılın qiyməti kəskin şəkildə geriləyib.

Dünən qızılın bir unsiyasının qiyməti 4381,52 ABŞ dollarına qədər yüksələrək yeni zirvəyə çatmışdı. Lakin bu gün qlobal birjalarda qızıl 6,3% ucuzlaşaraq son 12 ilin ən böyük geriləməsini qeydə alınıb.

Qiymətlərin düşməsində bir sıra amillər rol oynayıb - Çin və ABŞ arasında aparılan müsbət ticarət danışıqları, dolların möhkəmlənməsi, ABŞ hökumətinin fəaliyyətindəki fasilə səbəbindən investorların mövqelərində yaranan qeyri-müəyyənlik, eləcə də Hindistanda mövsümi qızıl alışı dalğasının başa çatması kimi faktorlar qiymətli metalların dəyərini aşağı salıb.

ABŞ Prezidenti Donald Tramp və Çin Dövlət Başçısı Si Cinpinin gələn həftə ticarət sahəsində fikir ayrılıqlarını aradan qaldırmaq üçün görüşəcəkləri gözlənilir. Bu görüşə dair optimizm "təhlükəsiz liman" kimi qəbul edilən qızıla tələbi azaldıb. Eyni zamanda, ABŞ dollarındakı artım qızılı digər valyutalarla alan investorlar üçün daha baha edib.

Bu il təxminən 80% bahalaşan gümüş də bu gün eniş tendensiyasına qoşulub.

# Süni intellekt ağıl və şüura sahibdirmi? O, düşünə bilirmi?

İnsan düşüncəsini və məntiqini maşınlarda əks etdirmək ideyası qədim dövrlərə gedib çıxır. Aristotelin məntiq nəzəriyyəsi (eramızdan əvvəl IV əsr) – insan düşüncəsini formal qaydalarla izah etmək cəhdləri olmuşdur. XVII əsrdə Dekart və Ləbnits kimi filosoflar "ağlın riyazi modellərlə təsviri" fikrini ortaya atıblar.

Süni intellekt ayrıca elm sahəsi kimi 1956-cı ildə ABŞ-nin Dartmut Konfransında formalaşıb. Burada Con MakKarti, Marvin Minski, Klod Şennon və digərləri "artificial intelligence" terminini ilk dəfə işlədiblər. Bu tarix SI-nin "doğum ili" hesab olunur. 1950-ci illərdə Alan Turing-in "Maşınlar düşünə bilərmi?" sualı və onun təklif etdiyi Turing testi nəzəri əsas yaratdı. 1950–1960-cı illərdə sadə proqramlar – məsələn, şahmat proqramları və məntiqi teoremləri sübut edən sistemlər ilk praktiki nümunələr oldu. 1960-1980-ci illərdə ekspert sistemləri, 1990-cı illərdə neyron şəbəkələr, 2000-ci illərdə isə böyük məlumatların (Big Data) və güclü prosessorların ortaya çıxması SI-nin real tətbiqlərini sürətləndirdi.

**Alan Turing və onun sualı**

1950-ci ildə britaniyalı riyaziyyatçı və məntiqçi Alan Turing "Computing Machinery and Intelligence" adlı məqalə dərc etdi. Burada o, məşhur sualı verdi:

**"Maşınlar düşünə bilərmi?"**

**Bu sual birbaşa "bəli" və ya "xeyr" cavabından çox, düşünmənin necə ölçülə biləcəyini araşdırmaq məqsədi daşıyırdı. Turing düşüncənin ölçülməsi üçün "Imitation Game-İmitasiya oyunu" adlanan bir oyun təklif etdi. Sonradan buna Turing testi deyildi. Onun mahiyyəti belədir:**

*1. Bir insan (sual verən) pərdə arxasında gizlənmiş iki tərəflə yazılı dialoq qurur: biri insandır, digəri isə maşın.*

*2. Sual verən kimin insan, kimin maşın olduğunu ayırd etməyə çalışır.*

*3. Əgər sual verən insanı və maşını dəqiq seçə bilmirsə, deməli, maşın "düşünə bilir" kimi qəbul edilir.*

Turing testi süni intellektin ilk rəsmi ölçü meyarı sayılır. Burada əsas diqqət "düşünmək" sözünün abstrakt izahına yox, insanla bənzər davranış sərgiləmək qabiliyyətinə yönəlmişdi. Bu ideya sonrakı onilliklərdə SI araşdırmalarının fəlsəfi və elmi əsasını qoydu.

**Gəlin, Turing testinin üstünlükləri və çatışmazlıqlarına baxaq:**

**Üstünlükləri:**

***1. Turing testinin əsas üstünlüyü odur ki, "intellekt" anlayışını abstrakt fəlsəfi izahlarla deyil, praktik müşahidə ilə ölçür. Sadəcə insan-maşın dialoqu kifayətdir.***

***2. İnsan davranışına əsaslandığı üçün real həyatda qəbul edilə bilən bir ölçü təqdim edir. Yəni "insan kimi danışırsa, kifayətdir".***

***3. Bu test süni intellekt tədqiqatlarını illərlə istiqamətləndirib. İnsanla təbii ünsiyyət qurmaq məqsədi chatbotların, təbii dil işlənməsinin inkişafına böyük təkan verib.***

**Çatışmazlıqları:**

***1. Bir maşın insan kimi danışa bilər, amma bu onun həqiqətən "düşündüyünü" sübut etmir. Sadəcə simvolları emal edir. (Searle-in "Çin otağı arqumenti" buna qarşı ən məşhur tənqiddir).***

***2. İntellekt yalnız dil bacarığı ilə ölçülmür. Məntiq, yaradıcılıq, hisslər, öyrənmə, problem həlli kimi sahələr testdə nəzərə alınmır.***

***3. Maşınlar xüsusi "aldatma" texnikaları ilə insanı çaşdıra bilər. Bu isə testin obyektivliyini azaldır.***

***4. Testin nəticəsi sorğu aparan insanın diqqətindən, bilik səviyyəsindən asılıdır. Hər zaman dəqiq və sabit nəticə vermir.***

Turing testi tarixi baxımdan çox önəmli olsa da, bu gün süni intellekti qiymətləndirmək üçün yeganə meyar hesab edilmir. İndi SI-nin "ağıllı" olub-olmadığını ölçmək üçün əlavə metodlar var: IQ testlərinə bənzər riyazi tapşırıqlar, Özünüöyrənmə qabiliyyətləri, Mühitdə müstəqil qərar vermə bacarıqları və s.

**Bəs Çin otağı arqumenti nədir? Bu arqumenti 1980-ci ildə amerikalı filosof Con Searle Turing testinə qarşı irəli sürdü. Məqsəd sübut etmək idi ki, bir maşın insan kimi cavab versə də, bu onun həqiqətən düşündüyü demək deyil. Eksperimentin təsviri belədir:**

***1. Tutaq ki, bir insan (çin dilini bilməyən) otaqda oturur.***

***2. Onun qarşısında çin heroqliflərinin istifadəsini izah edən qaydalar kitabı var.***

***3. Kənardan ona çin dilində suallar yazılı şəkildə verilir.***

***4. O isə qaydalar kitabından istifadə edərək uyğun heroqlifləri seçib cavabı geri göndərir.***

Nəticədə kənarda olan çin dili bilən adam baxanda elə bilir ki, otaqdakı şəxs çin dilini bilir və düşünür. Amma əslində otaqdakı adam yalnız simvolları mexaniki qaydada birləşdirir, dili və mənanı anlamır. Kompüter də eyni cür işləyir: simvolları emal edir, uyğun cavablar yaradır, amma bu onun "anladığını" və ya "şüurlu olduğunu" sübut etmir. Yəni Turing testini keçmək "ağıl" və ya "şüur" sübutu deyil, sadəcə davranış oxşarlığıdır.

Çin otağı arqumenti göstərir ki, intellekt yalnız xarici davranışla ölçülə bilməz. Anlama və şüur məsələsi daha dərin və mürəkkəbdir. Bu səbəbdən də elm adamları sonralar süni intellektin qiymətləndirilməsi üçün əlavə metodlar axtarmağa başladılar.



*Bəhruz Əliyev,*
*İnformasiya Texnologiyaları üzrə mühəndis-tədqiqatçı,*
*Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) eksperti*

**İndi gəlin, Çin otağı arqumentinin süni intellekt fəlsəfəsində yaratdığı mübahisələrə baxaq:**

*Tərəfdarların mövqeyi (Çin otağı arqumnetini müdafiə edənlər)*

***1. Onların fikrincə, kompüterlər sadəcə simvolları emal edir. Yəni onlar sintaksisi (qaydaları) yerinə yetirirlər, amma semantik (mənanı) anlamırlar. Məsələn, ChatGPT səninlə çox məntiqli danışa bilər, amma bu onun "şüurlu" olması anlamına gəlmir.***



***2. İnsan davranışını təqlid etmək "anlamaq" demək deyil. Əgər bir proqram suallara düzgün cavab verirsə, bu yalnız "proses"dir, "anlama" deyil.***

***3. Həqiqi intellekt yalnız cavab verməklə deyil, həm də niyyət, şüur və subyektiv təcrübə ilə bağlıdır. Bunlar maşında yoxdur.***

**Tənqidçilərin mövqeyi (Çin otağı arqumentinə qarşı çıxanlar)**

***1. Searle-in misalında otaqdakı adam dili bilmir, amma bütün otaq sistemi (adam + kitab + qaydalar) dili bilir kimi çıxış edir. Bu halda "anlama" fərddə yox, sistemin özündə yerləşir.***

***2. Arqument daha çox statik qaydalar üzərində qurulub. Halbuki müasir süni intellekt öyrənir, təcrübədən nəticə çıxarır və qaydaları özü formalaşdıra bilir.***

***3. Əgər maşın insanla ayırd edilməyəcək səviyyədə dialoq qura bilirsə, onun "həqiqətən anlayıb-anlamaması" fəlsəfi mübahisədir. Real həyatda vacib olan funksional nəticədir.***

Çin otağı arqumenti hələ də açıq mübahisədir. Bəziləri üçün bu, süni intellektin heç vaxt "həqiqətən ağıllı" ola bilməyəcəyini göstərir. Digərləri üçün isə bu arqument zəifdir, çünki intellekt davranış və öyrənmə üzərində ölçülməlidir, daxili "şüur" tələbi isə artıqdır, - deyən tərəflər də var.

Sonda fikirlərimi bu formada yekunlaşdırmaq istərdim. Süni intellektin özünə aid həyat təcrübəsi yoxdur. O başqalarından öyrəndiklərini sanki özünə aid imiş kimi təqdim edir. Süni intellekt heç vaxt "Koroğlu uvertürası"na qulaq asıb, tarixi hisslərə qapılmyacaq, Bayatı-Şirazı dinləyərkən, tükləri biz-biz olmayacaq. Qara Qarayevin "Yeddi gözəl baleti"nə və ya Vivaldinin "For Season-Dörd fəsil", Bethovenin simfoniyalarını dinləyərkən insan kimi emosional hisslər keçirməyəcək, o sadəcə və sadəcə insanı imitasiya edəcək. Həyat insana məxsusdur, hisslər də insanda mövcuddur. Süni intellekt isə insanın çətin işlərini həyata keçirmək üçün təsirli bir alətdir. Hər zaman cəmiyyətin faydası üçün istifadə edilməsini arzu etdiyimiz bir alət...

# "AzerGold" QSC 5-ci "Rebuild Karabakh" sərgisində iştirak edib

"AzerGold" QSC 14-16 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçirilən 5-ci Yubiley Azərbaycan Beynəlxalq "Qarabağın Bərpası, Yenidənqurulması və İnkişafı" sərgisi – "Rebuild Karabakh"da xüsusi stendlə təmsil olunub.



Sərgi pavilyonunda Cəmiyyət tərəfindən müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra edilən mühüm layihələrə dair təqdimatlar nümayiş olunub.

Ziyarətçilərə rəqəmsal və audiovizual materiallar, çap məhsulları vasitəsilə "AzerGold" QSC-nin fəaliyyət istiqamətləri üzrə yeniliklər, ölkə iqtisadiyyatına



töhfələri, eləcə də hasilat zonalarında həyata keçirilən sosial layihələr barədə ətraflı məlumat təqdim edilib.

Sərgi iştirakçılarının diqqətinə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Kəlbəcər rayonunda yerləşən "Zod" qızıl mədəni, "Tutxun", həmçinin "Şorbulaq" sahəsindəki qızıl, xrom və civə filiz təzahürlərində aparılan geoloji kəşfiyyat işlərinin mövcud vəziyyəti və perspektivləri çatdırılıb.

Tədbir çərçivəsində "AzerGold" QSC-nin təqdim etdiyi qızıl və gümüş sikkələr, eləcə də qızıl külçələr yerli və xarici sərgi ziyarətçilərin diqqət mərkəzində olub.

Stenddə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə müasir "Smart-minting" texnologiyası əsasında 3D formatında istehsal edilən "100 il və onun fövqündə bir irs" adlı unikal qızıl sikkə və Qarabağ mövzusuna aid "Qarabağ xalçası - Çələbi", "Qarabağ inciləri", "Şuşa" və "Xurşidbanu Natəvan", yeni "Laçın" qızıl və gümüş sikkəsi daxil olmaqla, Azərbaycanın tarixi, mədəniyyəti və incəsənətini əks etdirən 12 çeşiddə qızıl, 5 çeşiddə gümüş sikkə kolleksiyası nümayiş etdirilib. Həmçinin 2020-ci il Vətən müharibəsində əldə olunan şanlı Qələbənin 5-ci ildönümünə ithaf olunan, Zəfər Günü ərəfəsində ictimaiyyətə təqdim edilməsi planlaşdırılan "Zəfər" qızıl sikkə kolleksiyasının dizayn konsepsiyası da sərgi çərçivəsində ilk dəfə təqdim edilib.

# Həkimlərimiz İnvaziv Kardiologiya Konfransında uğurlu TAVİ əməliyyatı həyata keçiriblər

Mərkəzi Gömrük Hospitalının həkimləri VII Azərbaycan İnvaziv Kardiologiya Konfransında uğurlu TAVİ əməliyyatı həyata keçiriblər.

Dünya kardiologiyasında böyük nüfuza malik professor Antonio Colombonun moderatorluğu ilə keçirilən VII Azərbaycan İnvaziv Kardiologiya Konfransı çərçivəsində Mərkəzi Gömrük Hospitalının Kardiologiya şöbəsinin rəisi, invaziv kardioloq İlqar Tahiroğlu və onun komandası canlı yayımda Transkateter Aortal Klapan İmplantasiyası əməliyyatını uğurla icra edib.

TAVİ əməliyyatı qısa müddət ərzində, yüksək peşəkarlıq və koordinasiya ilə həyata keçirilib. Bu nailiyyət Mərkəzi Gömrük Hospitalının Kardiologiya



şöbəsinin tibb heyətinin yüksək peşə hazırlığını bir daha nümayiş etdirib.

Konfransın sonunda professor Antonio Colombo Mərkəzi Gömrük Hospitalının komandası haqqında yüksək fikirlər səsləndirib, onların peşəkarlığını və əməliyyatın mükəmməl icrasını xüsusi vurğulayıb. Professorun bu dəyərləndirməsi, konfrans iştirakçıları və tibb ictimaiyyəti üçün olduğu kimi, Mərkəzi Gömrük Hospitalının kollektivi üçün də böyük qürur və motivasiya mənbəyi olub.

Qeyd edək ki, TAVİ əməliyyatı ürəkdəki aortal qapağın daralması zamanı açıq ürək əməliyyatı aparmadan, minimal invaziv üsulla qapağın dəyişdirilməsini təmin edən yüksək texnoloji müdaxilədir. Bu üsul xəstələrin reabilitasiya müddətini qısaldır və həyat keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük**
**Hospitalının**
**PR mütəxəssisi**

# Mərkəzi Gömrük Hospitalında ilkin yanğın təhlükəsizliyi qaydaları ilə bağlı təlim keçirilib






20 oktyabr 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında ilkin yanğın təhlükəsizliyi qaydaları ilə bağlı təlim keçirilib. Təlimdə Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov, əməkdaşlar, orta tibb personalı iştirak ediblər.

Təlimdə ilkin yanğın zamanı düzgün davranış, ilkin yanğınsöndürmə avadanlıqları və fərdi mühafizə vasitələrindən istifadə qaydaları barədə geniş məlumat verib, yanğın zamanı zəruri tədbirlər, təhlükəsizliyin təmin olunması üçün davranış qaydaları, ilkin yanğın təhlükəsizliyi qaydaları, yanğın şkafının qapısının açılması, yanğın şlanqının açılması üsulu, su kranı, su şlanqının idarə olunması proseslərini ardıcıl şəkildə izah ediblər.

Təlimin praktiki hissəsində Mərkəzi Gömrük Hospitalının yanğından mühafizə üzrə məsul şəxsi Qasımov Rizvan ilkin yanğın zamanı düzgün davranış, ilkin yanğınsöndürmə avadanlıqları və fərdi mühafizə vasitələrindən istifadə qaydaları, fövqəladə hallarda pasiyentlərin təhlükəsiz şəkildə təxliyəsi prosesi barədə geniş məlumat verib, yanğın zamanı zəruri tədbirlər, təhlükəsizliyin təmin olunması üçün davranış qaydaları, ilkin yanğın təhlükəsizliyi qaydalarını və idarə olunması proseslərini ardıcıl şəkildə vizual olaraq izah edib. Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında müzakirələr aparılıb və praktiki nümunələr üzərində fikir mübadiləsi həyata keçirilib.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük**
**Hospitalının**
**PR mütəxəssisi**

# Trampın reytinqi şatdauna baxmayaraq artıb

ABŞ prezidenti Donald Trampın reytinqi hökumətin fəaliyyətinin dayandırılmasına (şatdauna) baxmayaraq artıb. Bu barədə "Reuters" məlumat yayıb.

Agentliyin son altı gün ərzində keçirdiyi sorğuya əsasən, Trampa etimad səviyyəsi iki bənd artaraq 42%-ə çatıb. Qeyd olunur ki, prezidentin reytinqi apreldən bəri 40-44% inte "Azərbaycan regional güc kimi çox mühüm rol oynayır"

Qazaxıstan və Azərbaycan təkcə dost dövlətlər deyil, həm də qardaş xalqlar və millətlərdir. Ona görə də Sizin ölkənizlə çoxşaxəli əməkdaşlığın inkişafı bizim üçün böyük prioritetdir.

Bu sözləri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyev



ilə təkbətək görüşündə söyləyib. "Üstəlik, Azərbaycan Sizin güclü liderliyinizlə öz mövqelərini xeyli möhkəmləndirib, beynəlxalq arenada nüfuzunu artırıb və dünyanın sizə aid hissəsində regional güc kimi çox mühüm rol oynayır", - deyə o əlavə edib.

rvalında dəyişir.

Sorğuda iştirak edənlərin 50%-i hesab edir ki, şatdauna görə əsas məsuliyyət respublikaçı partiyadan olan Konqres rəhbərliyinin üzərindədir. 43% isə günahı demokratlarda görür.

ABŞ-da şatdaun oktyabrın 1-də başlayıb - bu, ölkə hökumətinin fəaliyyətinin 2019-cu ildən bəri ilk dayandırılmasıdır. Hadisə Konqresin partiyalararası fikir ayrılıqları səbəbindən illik büdcəni və müvəqqəti maliyyələşdirməni təsdiqləyə bilməməsindən sonra baş verib.

Donald Tramp açıqlayıb ki, şatdaun nəticəsində ABŞ-da artıq dövlət qulluqçularının ixtisarı başlayıb və bu vəziyyətə görə məsuliyyət demokrat partiyasının siyasi rəqiblərinin üzərinə düşür.

# Dünya ölkələrində yığılmış inflyasiya səviyyəsi (2020-2025)

"Visual Capitalist" 2020-2025-ci illərdə dünya üzrə müxtəlif ölkələrdəki yığılmış inflyasiya göstəricilərini dərc edib. Ən böyük inflyasiya Argentinada qeydə alınıb — 2 614%. Ölkə 2020-ci ildə yeddinci dəfə dövlət defoltuna uğrayıb, sonra isə qtisadiyyatı canlandırmaq məqsədilə pul çapını artırıb, bu isə inflyasiyanın kəskin yüksəlməsinə gətirib çıxarıb.

Bu arada, Avropada Macarıstan (52%), Rusiya (44%), Polşa (42%) və Çexiya (39%) kimi ölkələr Rusiya–Ukrayna müharibəsi nəticəsində enerji xərclərinin artması ilə əlaqə-




dar olaraq kəskin qiymət artımı yaşayıb.

Bu təsir Böyük Britaniyada nisbətən zəif olub — burada qiymətlər 24% artıb.

Avropa üzrə İsveçrə ən az təsirlənən ölkə olub — İsveçrə frankının gücü sayəsində yığılmış inflyasiya cəmi 6% təşkil edib. Bu ilin may ayında inflyasiya mənfi göstəriciyə düşdüyündən, İsveçrə Mərkəzi Bankı faiz dərəcələrini 0%-ə endirib.

Amerikada isə 2020-ci ildən bəri qiymətlər 23% artıb. Son bir ildə elektrik qiymətləri inflyasiya tempindən iki dəfə çox artıb, mal ətinin qiyməti isə 2024-cü ilin avqustundan bəri 16% bahalaşıb. Pandemiyadan sonrakı dövrdə inflyasiyanın tədricən azalmasına baxmayaraq, bazarın bəzi əsas seqmentləri hələ də amerikalılar üçün yaşayış xərclərinə təzyiq göstərməkdə davam edirlər.




**Azeri Light markalı neftin 16-22 oktyabr tarixləri üzrə satış qiyməti, barel/ABŞ dolları**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500